

Kriminal aləmin tanınmış nümayəndəsi, “Lotu Quli” ləqəbli Nadir Səlifovun avtoritet dostları Gürcüstan hökumətinə qeyri-rəsmi formada xəbərdarlıq edib.

Bu barədə N.Səlifova yaxın mənbələrdən məlumat daxil olub.

Məlumatda bildirilir ki, avqustun 28-də “Lotu Quli”nin 41 yaşının tamam olması münasibətilə Gürcüstanda bir araya gələn avtoritetlər bu ölkənin hökumət rəsmilərinə N.Səlifovun Azərbaycandan alınması üçün verdikləri külli-miqdarda rüşvətlərin nəticəsiz qalması barədə iradlarını çatdırıb və bir sıra nazirlərə xəbərdarlıq mesajı göndərərək, bu prosesi sürətləndirməyi tələb ediblər.

Qeyd edək ki, “Lotu Quli”nin Gürcüstana ekstradisiya edilməsi məsələsi bir neçə aydır gündəmdədir. N.Səlifovun qohumları bununla bağlı Gürcüstan hökumətinə müraciət etmiş, onun Azərbaycandan alınaraq, cəzasını vətəndaşı olduğu ölkədə çəkməsinə şərait yaradılması xahiş edilmişdi.

Bu barədə əldə etdiyimiz yeni məlumatlarda deyilir ki, məhz bu iş üçün “Lotu Quli”nin Gürcüstanda və Azərbaycanda olan mülklərinin əhəmiyyətli hissəsi satılıb və İvanaşvili hökumətindəki nazirlərdən bəzilərinə rüşvət verilib. Mənbənin sözlərinə görə, avtoritetlərin tələbi də məhz rüşvət verdikləri nazirlərdən olub. Kriminal aləm təmsilçiləri verdikləri pulun qarşılığında tələb edirlər ki, “Lotu Quli”nin ekstradisiya məsələsi sürətləndirilsin. Xatırladaq ki, “Lotu Quli”nin həbs müddətinin bitməsinə 7 ildən çox qalıb. Onun Gürcüstana ekstradisiya olunması prosesinin sürətlənməsini istəməsinin səbəblərindən biri də məhz budur.